Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Kinomuzun şərəfli səhifəsi

**Tofiq Tağızadənin 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Kinomuzun şərəfli səhifəsi:** Tofiq Tağızadənin 100 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed.K.Səmədzadə; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2019. – 20 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tofiq Tağızadənin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin fevral ayında Azərbaycanın görkəmli kino rejissoru, Əməkdar incəsənət xadimi, Xalq artisti Tofiq Mehdiqulu oğlu Tağızadənin anadan olmasının 100 illiyi tamam olur.

Tofiq Tağızadə dünya kinematoqrafiyasının mütərəqqi təcrübəsindən yaradıcı şəkildə bəhrələnərək nadir istedada malik rejissor kimi özünəməxsus dəst-xətti ilə Azərbaycan kino sənətinə mühüm yeniliklər gətirmiş və mədəniyyət tariximizdə dərin iz qoymuşdur. Sənətkarın yüksək estetik meyarlarla xalqımızın mədəni, mənəvi irsini canlandıran və müasirlərin həyatını dolğun əks etdirən rəngarəng mövzulu silsilə ekran əsərləri, o cümlədən "Uzaq sahillərdə", "Arşın mal alan", "Yeddi oğul istərəm" və "Dədə Qorqud" filmləri Azərbaycan kinosunun qızıl fonduna daxil olmuş parlaq sənət nümunələridir. Tofiq Tağızadənin respublikada kino işinin təşkili və kadr hazırlığı sahəsində də təqdirəlayiq xidmətləri vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qazandığı nailiyyətlərlə ölkə kinematoqrafiyasının daha da zənginləşməsi işinə dəyərli töhfələr vermiş Xalq artisti Tofiq Tağızadənin anadan olmasının 100-cü ildönümünün layiqincə qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının təkliflərini nəzərə almaqla, Xalq artisti Tofiq Tağızadənin 100 illik yubileyi ilə əlaqədar tədbirlər planını hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 24 yanvar 2019-cu il.**

## Tərtibçidən

Azərbaycan kino sənətinin inkişafında özünəməxsus xidmətləri olan Xalq artisti, rejissor Tofiq Tağızadənin adı mədəniyyət tariximizdə mühüm yer tutur. Onun bu sahədəki yaradıcılığı kino tarixində ayrıca bir səhifədir. Tofiq Tağızadənin adı çəkiləndə gözlərimiz qarşısında sevə-sevə seyr etdiyimiz onlarca filmlərdən maraqlı epizodlar canlanır.

Onun haqqında belə bir fikir var: Tofiq Tağızadəni dərindən tanımaq istəyənlər mütləq onun filmlərini seyr etsinlər. Azərbaycan kino sənətinə yeni nəfəs gətirən Tofiq Tağızadə ömrünün 40 ildən artıq bir dövrünü kinoya bağlamışdır. Onun rejissorluq etdiyi filmlər sadəcə seyr etmək üçün deyil, bu lent əsərləri əsl məktəbdir. Diqqətlə seyr etdikdə bu filmlərdəki ən kiçik detalın da əks etdirdiyi böyük mənalar, milli-mənəvi dəyərlərimizin təntənəsi diqqət çəkir. Sovet quruluşunda cəsarətlə milli kino çəkmək, adi simvollarla, görüntülərlə tarixin çox qaranlıq mətləblərindən xəbər vermək rejissorun yüksək təfəkküründən, düşüncəsindən, soya-kökə bağlılığından xəbər verirdi.

Vəsait Tofiq Tağızadənin 100 illik yubileyi münasibətilə respublikamızda fəaliyyət göstərən uşaq kitabxanalarında keçiriləcək tədbirlərə köməklik məqsədilə yazılmışdır. Vəsait iki hissədən ibarətdir. I hissə Tofiq Tağızadənin həyat və yaradıcılığından, II hissə isə kitabxanada rejissora həsr olunmuş yubiley tədbirlərindən bəhs edir.

## Həyat və yaradıcılığı

Tofiq Tağızadə 1919-cu il fevralın 7-də Bakıda anadan olmuşdur. Şəhər mühitində böyümüş gəncin uşaqlıqdan teatra, kinoya böyük həvəsi olub. Tanınmış kinoşünas Aydın Kazımzadə apardığı təqdiqatlar nəticəsində belə nəticəyə gəlib ki, Tofiqdə kinoya marağı uşaqlıq illərində tamaşa etdiyi məşhur çarli Çaplinin filmləri doğurub. Orta məktəbi bitirən kimi əvvəlcə energetika texnikumuna daxil olub, paralel musiqi məktəbində də oxuyub. Kinoya gələn yolları dolanbac döngələrdən keçib. 1938-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun energetika fakültəsində oxuyub. Üçüncü kursda oxuyarkən İkinci dünya müharibəsi başlayıb. Tofiq Tağızadə cəbhəyə göndərilir. Rostov yaxınlığında gedən döyüşlərin birində ağır yaralanaraq geri qaytarılıb. Nəhayət müharibə başa çatır. Bununla da, Tofiq Tağızadə arzusuna qovuşur. O, Moskvada ÜDKİ-nin kinorejissorluq fakültəsinə qəbul olunur. Tələbəlik illərində istedadlı gənclərlə bir yerdə çalışır. Sonralar onların hər biri məşhur kinorejissor kimi nəinki öz ölkələrində, həm də dünyada tanınıblar. Bu gənclərin arasında Tofiq Tağızadənin tələbə yoldaşı, sonralar məşhurlaşacaq rejissor Əjdər İbrahimov da var idi. Bu gənclərin hər biri müharibənin ağrı-acılarını çəkmiş, onun dəhşətini yaxından hiss etmişdilər. Ona görə də bir yerdə söhbət edərək fikirləşdilər ki, hər kəs öz ölkəsinə qayıtdıqdan sonra mütləq müharibələri pisləyən filmlər çəksinlər. Təhsil illəri başa çatdıqdan sonra Tofiq Tağızadəni “Mosfilm” kinostudiyasına göndərirlər. Bir müddət Moskvada çalışdıqdan sonra öz arzusu ilə doğma vətənə qayıdan və ömrünün sonuna kimi C. Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında fəaliyyətə başlayan Tofiq Tağızadə milli kino tarixinin yeni səhifələrini yazdı. İlk filmi “Görüş” (1955) oldu. Bu, Tofiq Tağızadəyə böyük uğurlar gətirdi. Film Azərbaycan

və Özbəkistan pambıqçılarının ənənəvi dostluğundan bəhs edirdi və onu iki ölkənin rejissoru ekranlaşdırmışdı. Bu debut çox uğurlu alındı. Yəni, gənc rejissorların qabiliyyəti üzə çıxdı. Tofiq Tağızadə əslində müharibə mövzusunda film çəkmək istəyirdi. Bu səbəbdən də içindəki narahatçılıq ona dinclik vermirdi. Nəhayət, Tofiq müəllim bu arzusuna da qovuşdu. Üç ildən sonra ekranlara çıxan "Uzaq sahillərdə" filmi həm rejissora, ssenaristə, həm də aktyorlara böyük şöhrət gətirdi. Həqiqətən, "Uzaq sahillərdə" filmi nəinki Azərbaycanda, nümayiş etdirilən hər bir ölkədə hadisəyə çevrilmişdir. Filmin musiqisini böyük bəstəkarımız Qara Qarayev yazmışdı. Baş rolun ifaçısı Nodar Şaşıqoğlu idi. Ssenarisini yazıçı İmran Qasımov və Həsən Seyidbəyli qələmə almışdılar.

Tofiq Tağızadənin bütün filmləri gözəldir. Onların adları da çox maraqlıdır: "Mən rəqs edəcəyəm", "Arşın mal alan", "Mən ki gözəl deyildim", "Yeddi oğul istərəm", "Babamın babasının babası", "Bağ mövsümü", "O dünyadan salam" və s.

Tofiq Tağızadə son dərəcə istedadlı və həssas rejissor idi. Sovet hökumətinin hər bir detalı ən kiçik ştrixlərə qədər lupa ilə nəzərdən keçirdiyi bir zamanda o, filmlərdə elə jestlərdən, görüntülərdən, sözaltı ifadələrdən, əşyalardan bacarıqla istifadə edirdi ki, min illər də keçə belə, bu filmlərə hər hansı bir quruluş balta çəkə bilməz. Ona görə ki, əsl milli mənəviyyata xidmət edən əsərlərə ekran həyatı verirdi. T. Tağızadə həm də çox məsuliyyətli rejissor idi. Filmlərə çəkiləcək aktyorları özü axtarıb tapırdı. Seçimi də elə dəqiq və ustalıqla edərdi ki, sanki bu rollar elə əvvəlcədən həmin aktyorun potensialını nəzərə alaraq yaradılıb. Bütün filmlərdə Tofiq Tağızadənin aktyor seçimi uğurlu alınmışdı. Onun işgüzarlığı, işinə bağlılığı əhatəsində olduğu sənət adamlarına da sirayət etmişdi.

Tofiq Tağızadə bəşəri mövzulara müraciət etməyi daha çox sevirdi. 1975-ci ildə "Kitabi-Dədə Qorqud" dastanının motivləri

əsasında ekranlaşdırdığı “Dədə Qorqud” filmi Azərbaycan kino sənətinin dönüş nöqtəsi oldu. Vaxtilə bu dastanın hansı qadağalara, təzyiqlərə məruz qaldığı bəllidir. Bütün türk dünyasının şah abidəsi sayılan belə bir möhtəşəm epopeyanı filmə gətirmək asan məsələ deyildi. Tofiq Tağızadə ötən əsrin 30-cu illərinin repressiyasının şahidi olmuş sənətkarlardan biri idi. O, çox gözəl bilirdi ki, milli təfəkkür və düşüncəyə, şüura bağlılıq bəzən şöhrət gətirsə də, sonda hansı ağır nəticələrlə yekunlaşa bilər. Tofiq Tağızadənin bir rejissor kimi ən böyük xidməti ondan ibarət idi ki, o, heç nədən çəkinmədən, bəlkə də həyatını təhlükə altına qoyaraq Xalq yazıçısı Anarın yazdığı “Dədə Qorqud” filmini xalqına ərmağan etdi. 50 ilə yaxındır ki, bu film tamaşaçı rəğbəti ilə seyr edilir. Buradakı vətən, millət, torpaq, ana sevgisi təkcə dastanın mənsub olduğu xalqa deyil, bütün bəşəriyyətə məxsusdur. Bəşəri duyğuları sənət əsərinə çevirib yaşatmaqsa müdriklikdir, əbədiyyətə qovuşacaq mənəvi ömür tapmaqdır. Çəkdiyi filmlərlə ölümsüzlük qazanan

T. Tağızadə təkcə kinorejissor deyildi. O, uzun illər respublikamızda kino işinin təşkilində və milli kadrların hazırlanmasında əvəzsiz xidmət göstərib. Kinematoqrafçılar İttifaqında katib vəzifəsində işləyib. Dəfələrlə Azərbaycanın və keçmiş Sovetlər birliyinin deputatı kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışıb. Hər kəs Tanrının yazdığı bir ömür payı yaşayır. Sağlığında unudulanlar da var. Xoşbəxtlikdən Tofiq Tağızadə həmişə üzdə olan, həm həmkarları, həm də tamaşaçılar tərəfindən sevilən, arzulanan şəxsiyyət idi. Sağlığında film çəkməyə, yaratmağa, işləməyə çağırardılar, axtarardılar. İndi də filmlərinə müntəzəm tamaşa edilir və hər dəfə də yeni tapıntılar, işarələr, mənalar açıqlanır. Bu səbəbdən də Tofiq Tağızadənin yaratdığı filmlər Azərbaycan kino sənətinin “qızıl fondu” adlanır.

## Yubiley tədbirlərinin keçirilməsi

Sənətkarın yüksək estetik meyarlarla xalqımızın mədəni, mənəvi irsini canlandıran və müasirlərinin həyatını dolğun əks etdirən rəngarəng mövzulu silsilə ekran əsərləri, o cümlədən "Uzaq sahillərdə", "Arşın mal alan", "Yeddi oğul istərəm", "Dədə Qorqud" filmləri Azərbaycan kinosunun qızıl fonduna daxil olmuş parlaq sənət nümunələridir. Tofiq Tağızadənin kino irsinin təşkili və kadr hazırlığı sahəsində də təqdirəlayiq xidmətləri vardır.

Azərbaycan kino sənətinin inkişafında böyük xidmətləri olan rejissor, Xalq artisti Tofiq Tağızadənin (1919-1998) anadan olmasının 100-cü ildönümünü qeyd etmək üçün respublikamızın hər bir təhsil ocaqlarında, məktəb, lisey, gimnaziya və kitabxanalarda, musiqi məktəblərində yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Yubiley tədbirlərinin keçirilməsi ilə bağlı bir sıra tədbirlər planı hazırlanmışdır. Belə tədbirlərin keçirilməsi F. Köçərli adına Respublika Uşaq Kitabxansında da nəzərdə tutulmuşdur.

Xalq artisti Tofiq Tağızadənin 100 illik yubileyi ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasının oxu zalında foto sərgi təşkil olunur. Sərgi "Azərbaycan kino sənətinin sönməyən ulduzu Tofiq Tağızadə" adı altında təşkil olunur. Sərgidə rejissor Tofiq Tağızadənin uzun illər ekranlaşdırdığı filmlərin fotoları öz əksini tapır.

Sərginin nümunəsini veririk:

1. Tofiq Tağızadənin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı;
2. Başlıq: "Azərbaycan kino sənətinin sönməyən ulduzu Tofiq Tağızadə";
3. Görkəmli şəxslər Tofiq Tağızadə haqqında;

4. Dövri mətbuatda Tofiq Tağızadə haqqında nəşr olunan materialların kartotekası;
5. Filmlərdən fraqmentlər.

**Görkəmli şəxslər Tofiq Tağızadə haqqında**

Tofiq müəllim zamanın problemlərini ekrana gətirir və insanları bu problemlər ətrafında düşünməyə sövq edirdi.

***

Həyatın əbədi sualları haqda çəkilən filmlər çox zaman özünün metafizik açıqlamaları ilə tamaşaçını çaşdırır və onu daha güclü xaosda əzab çəkməyə vadar edir. Tofiq Tağızadənin filmləri bu qəbildən olmasa da, bu filmlərdə bəşəriyyəti həmişə düşündürmüş həyatı müşküllər tam əbədi suallar səviyyəsində təzahür edir. Onun filmlərində tamaşaçı üçün qaranlıq heç nə qalmır.

**M. Mükərrəmoğlu**
*jurnalist*

Tofiq Tağızadə son dərəcə istedadlı və həssas rejissor idi.

**Flora Xəlilzadə**
*Əməkdar incəsənət xadimi*

Tədbir iştirakçıları sərgiyə baxdıqdan sonra kitabxanaçı sərgi qarşısında Tofiq Tağızadə yaradıcılığından qonaqlara dolğun məlumatlar verir.

Kinorejissor Tofiq Tağızadənin anadan olmasının 100 illiyi ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında ekskursiya təşkil olunur. Kitabxananın kollektivi və fəal oxucular Dövlət Film Fonduna ekskursiya edirlər. Ekskursiyanın məqsədi Azərbaycan filmlərinin saxlanılması və qorunması ilə tanışlıq məqsədi daşıyır. Burada oxuculara kino

və kinonun yaranması, kino lentlərinin necə qorunub, saxlanılması haqqında məlumat verdikdən sonra oxucular və kino ictimaiyyətinin nümayəndələri Tofiq Tağızadəni yad etmək üçün II Fəxri xiyabana gələrək sənətkarın məzarını ziyarət edib, məzarı üstünə tər çiçək dəstələri qoydular. Və bir daha görkəmli kino xadiminin xatirəsini ehtiramla andılar.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında yubileylə bağlı kitab icmalının keçirilməsi məqsədəuyğundur. Elə bu baxımdan kitabxananın fondunda yer alan Ulduzə Qaraqızının Azərbaycan filmlərinin yaranma tarixi adlı iki hissəli kitabı misal göstərə bilərik. Kitabda "Azərbaycanfilm", eləcə də digər studiyalarda istehsal edilmiş milli-mənəvi sərvətlərimizdən olan bədii filmlərimiz müəllif tərəfindən araşdırılaraq tədqiq edilmişdir. Bundan başqa, bu filmləri min bir zəhmətlə araya-ərsəyə gətirən insanların çəkiliş zamanı yaşadıqları mənəvi-psixoloji vəziyyətlər, həmçinin iş prosesində baş verən maraqlı hadisələr sadə dildə oxucuların diqqətinə çatdırılır. Kitab kino mütəxəssisləri, tələbələr və digər oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Kitabxanaçı: Azərbaycan kinosunun yaranma tarixi XIX əsrin son illərinə təsadüf edir. Bir əsrdən çox tarixə malik olan Azərbaycan kinosunun yaranma tarixi ilə bağlı bilgilər mətbuatda yer alsa da, filmlərin hazırlıq proseslərində baş verən hadisələrlə bağlı tam da olmasa, müəyyən mənada şərhlər verilsə də, bu, kinosevərləri tam qane edən formada həyata keçirilməyib. Bəlkə də ona görə ki, əksər hallarda kinomuz elmi şərhlər əsasında təhlil edildiyi üçün oxucu üçün qaranlıq qalan məqamlar çoxluq təşkil etmişdir. İndi isə T. Tağızadənin əmək sərf etdiyi kinolar haqqında...

**"Yeddi oğul istərəm"** haqqında:

Filmin ssenarisini Yusif Səmədoğlu Azərbaycanın görkəmli Xalq şairi Səməd Vurğunun "Komsomol poeması"nın motivləri

əsasında yazmışdır. Ssenari öncə Kamil Rüstəmbəyova təqdim edilib. Rol bölgüsü qurtardıqdan sonra sınaq çəkilişləri ərəfəsində naməlum səbəblərlə bağlı Kamil Rüstəmbəyov filmin quruluşçu rejissor işindən kənarlaşdırılır və həmin iş Tofiq Tağızadəyə həvalə edilir. Çox az bir müddət ərzində, hətta aktyor dəyişikliyi etmədən belə çəkilişləri başa çatdıran Tofiq Tağızadə, filmi hazır vəziyyətdə Bədii Şuraya təqdim edir.

Otuzuncu illərin əvvəllərindən ilk parçalarını çap etdirməyə başladığı bu əsərə S. Vurğun dönə-dönə qayıtmış, ona yeni fəsillər əlavə etmiş, 1956-ci ildə isə bütöv halda çapa hazırlamağa təşəbbüs göstərmişdir. Lakin təəssüf ki, şair buna müvəffəq ola bilməyib və S. Vurğun yaradıcılığının bu solmaz yadigarı yalnız onun vəfatından sonra, 1958-ci ildə qələm yoldaşları tərəfindən çap olunub. Bundan sonra "Komsomol poeması" dəfələrlə nəşr edilmiş, müxtəlif dillərə tərcümə olunmuşdur. Həmçinin haqqında məqalələr və xüsusi elmi-tədqiqat işi yazılmış, poemanın əsasında səhnə əsəri tamaşaya qoyulmuş, nəhayət onun motivləri üzrə tammetrajlı geniş ekranlı bədii film çəkilmişdir.

Filmin yaradıcıları əsərdə inqilab tarixinin ən məsul mərhələlərindən birinin – Azərbaycan kəndində Sovet hakimiyyəti uğrunda mübarizənin spesifik bədii inikasını, romantikasını, əsas götürmüşdür. Eyni zamanda bunu "Olsun inqilaba qanımız halal" şüarı ilə meydana atılmış azərbaycan komsomolçularının surətləri vasitəsilə ekranda canlandırmışlar. Rejissor bu filmdə öz üslubuna sadiq qalmış, monolit aktyor ansamblı yarada bilmişdir. Film həm rejissor işi, həm rəssam tərtibatı, həm də aktyor oyunu cəhətdən təqdirəlayiqdir. T. Tağızadə milli adət-ənənələrdən (Kosa-kosa" xalq mərasimi, Novruz bayramı, buna canlı misaldır) lentdə çox bacarıqla istifadə etmişdir.

Filmin ssenari müəllifi – Yusif Səmədoğlu, quruluşçu rejissor – Tofiq Tağızadədir. Filmin məzmunu əsasən tarixi – inqilabi janrda çəkilib. Film 20-ci illərin komsomolçularının fəaliyyətindən bəhs edir.

Cəlal obrazının ifaçısı Ənvər Həsənovun dediklərindən: "Tofiq Tağızadə məni Cəlal roluna dəvət edəndə artıq bir aktyor kimi özümə inamım yaranmışdı. Ssenarini oxuyan kimi başa düşdüm ki, bu rol mənə çox uyğundur. Ancaq onu da qeyd edim ki, filmə dəvət alarkən axırıncılar sırasında idim. Yəni Cəlal roluna mən də çəkilməyə bilərdim. Görünür sınaq çəkilişlərində olan oyunum onların xoşuna gəlmişdi ki, nəticədə də məni Cəlal roluna təsdiq etdilər. Say etibarilə "Yeddi oğul istərəm" filmi mənim çəkildiyim dördüncü film idi. Filmin çəkilişləri Abşeronda, Şağanda, Mərdəkanda, Buzovnada, Fatmayidə, Qobustanda aparılırdı. Hətta filmdə pavilyon çəkilişləri o qədər məharətlə yaradılmışdı ki, tamaşaçı bunu hiss edə bilmirdi. Etiraf edim ki, Cəlalı böyük ürək yanğısı ilə yaratdım.

Tofiq Tağızadə bu filmlə bağlı xatirələrində Elçin Məmmədovun aktyor işi barədə fikir söyləyib: "Elçinin yaratdığı Mirpaşa surəti bir rejissor kimi məni çox düşündürür. Sevinirəm ki, bu obrazı ilə kino aləminə vəsiqə alan Elçin Məmmədovun ilk addımı müvəffəqiyyətli olmuşdur".

Filmdə ən çətin, psixoloji rollardan biri isə Gəray bəy obrazıdır ki, onu da mərhum Həsən Turabov ustalıqla yaradıb. Araşdırma nəticəsində maraqlı faktlar üzə çıxıb: Belə ki, filmin çəkiliş vaxtı Tofiq Tağızadə hər bir kadrla əlaqədar olaraq, aktyorlarla məsləhətləşir və hər iki tərəf ümumi razılığa gəldikdən sonra çəkilişləri aparırmış. Filmin çəkiliş vaxtı Həsən Turabovla yöndaş olan aktyorlardan biri gileylənib ki, bəs, Turabova filmdə geniş hüquqlar verilib və buna görə də onun Gəray bəyi belə ifadəli çıxıb. Sübut üçün filmdəki məşhur səhnəni göstərirdi: Gəray bəy mağarada yeddi güllə düzdüyü

epizodu. Həmin epizod ssenaridə yoxmuş, Turabov çəkilişi dayandırıb, bir saat düşünəndən sonra onu tapıb çəkdirib.

Moskvada SSRİ Nazirlər Soveti yanında Dövlət Kinematoqrafiya komitəsinin "Soveksportfilm" xarici ticarət birliyində müttəfiq respublikaların kino studiyalarında yaradılmış filmlərə baxış keçirilmişdi. Baxışda Avropa və Asiya ölkələri kinostudiyalarının və kino pokatı birliklərinin nümayəndələri iştirak edirdilər. C. Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan "Yeddi oğul istərəm" filmi baxışda iştirak edənlər tərəfindən yüksək qiymətləndirilmişdir. Dörd ölkənin-Bolqarıstan, Macarıstan, Almaniya Demokratik Respublikası və Monqolustan Xalq Respublikasının nümayəndələri "Yeddi oğul istərəm" filmini almaq istədiklərini bildirmişlər. Tezliklə həmin ölkələrin kino həvəskarları 20-ci illərin ilk komsomolçularından söhbət açan bu filmə tamaşa edə biləcəklər. Tofiq Tağızadənin bütün filmlərinə xas olan yüksək vətənpərvərlik hisslərini ÜİLKGİ MK birinci katibi Yevgeni Tyajelnikov "Oktyabr inqilabı" ordeni ilə təltif olunması münasibətilə rejissora göndərdiyi teleqramda belə ifadə etmişdir: "Hörmətli Tofiq Mehdiqulu oğlu! ÜİLKGİ MK sizi Vətənin yüksək mükafatı ilə təltif olunmağınız münasibətilə təbrik edir, işinizdə böyük yaradıcılıq müvəffəqiyyətləri arzulayırıq. Sizi həmişə komsomolun dostları və fəal tərbiyəçiləri sırasında görməyə şadıq". T. Tağızadənin ekranlaşdırdığı "Yeddi oğul istərəm" filmi Lenin komsomolunun 50 illiyinə həsr olunmuş ən yaxşı filmlərdən biri kimi yüksək qiymətləndirilmiş və 1972-ci il üçün Azərbaycan Dövlət Mükafatına təqdim edilmişdir.

Tofiq Tağızadənin 80-90-cı illərdə lentə aldığı "Babamızın babasının babası", "Bağ mövsümü", "O dünyadan salam" və "Köpək" bədii filmləri Azərbaycan kinosu tarixində qızıl hərflərlə yazılmışdır. Bu filmlər arasında "Babamızın babasının

babası" filmi xüsusilə seçilir. Filmdə rejissorun baş rolu həvalə etdiyi aktyor Hüseynağa Sadıqovun ifasında 160 yaşlı kolxoz çobanı Əziz baba kinokomediyanın əsas uğurlarından biridir.

"Bağ mövsümü" filmi 1985-ci ildə çəkilmişdir. Filmin ssenari müəllifi Elçin, quruluşçu rejissor Tofiq Tağızadədir. Filmdə Ağababa rolunu Həsən Məmmədov, Ağabacı rolunu isə Səfurə İbrahimova canlandırır. Həsən Məmmədov Tofiq Tağızadənin quruluş verdiyi bir neçə filmdə yaddaqalan obrazlar yaratmışdır. Hər iki sənətkarın birgə əməkdaşlığı "Arşın mal alan", "Yeddi oğul istərəm", "Dədə Qorqud", "Bağ mövsümü" filmlərində baş tutmuşdur. Həsən Məmmədov Tofiq Tağızadə haqqında: "Tofiq Tağızadə ilə yaradıcı əlaqələrimiz Azərbaycan kinosunda bütöv bir dövrü əhatə edir. Mən onun həm janrda, həm də mövzusuna görə bir-birindən fərqlənən bir neçə filmində çəkilmişəm. Əgər onun filmlərinə diqqət yetirsəniz görərsiniz ki, o hər bir rola elə aktyor axtarıb tapır ki, sanki bu rol elə əvvəlcədən həmin aktyorun boyuna biçilibmiş. Kinoda belə bir fikir var ki, rollara düzgün seçilmiş aktyor ansamblı filmin müvəffəqiyyətinin yarısı deməkdir. Bu həqiqətən də belədir. İnanırsan ki, çəkdiyin zəhmət hədər getməyəcək. Azərbaycan milli kinosunda az da olsa bir iz qoya biləcəksən".

Görkəmli kinorejissor Tofiq Tağızadə yaradıcılığı ilə oxucuları daha yaxından tanış etmək məqsədilə F. Köçərli adına Respublika Uşaq Kitabxanasında xatirə gecəsinin keçirilməsi məqsədəuyğundur. Xatirə gecəsinə bir çox kino xadimləri, kinosevərlər, aktyorlar, İncəsənət Universitetinin tələbələri və Tofiq Tağızadənin qızı Xalq artisti İranə Tağızadə də dəvət oluna bilər. Səhnə gül-çiçək dəstələri ilə bəzədilir. Tofiq Tağızadənin portreti səhnənin divarından asılır. **"Sənətdə öz üslubu, öz dəst-xətti olan Tofiq Tagızadə - 100"** adlı tədbirin ssenarisini nümunə üçün veririk. Aparıcılar səhnəyə daxil olur.




**I Aparıcı:** Qəribə görkəmi var idi. Bəziləri onu amerikalılara oxşadırdı. Geydiyi kovboy şlyapası ona çox yaraşırdı. Bəlkə də, o, ətrafdakıların diqqətini çəkmək istəyirdi. Amma bu versiya o qədər inanılası deyildi. Tofiq müəllimin çox sadə xasiyyəti var idi. İnsanlarla rahat dil tapa bilirdi. Onunla işləyənlər deyirdilər ki, Tofiq müəllimin ipək kimi xarakteri var, çəkiliş meydançasında isə tamam başqa adam olurdu. Əsl professional kino xadimi idi. Çəkdiyi filmlərin kino salnaməmizdə öz yeri var. Bu filmləri fərqləndirən əsas cəhətlər orada milli xüsusiyyətlərin üstünlük təşkil etməsi idi. Xalqın milli ruhu, adət-ənənələri onun filmlərində məharətlə əks olunurdu.

Tofiq Tağızadə vaxtının az olmasına baxmayaraq, daim axtarışlar edir, yeni bir nəfəslə kino aləmini işıqlandırmağa çalışırdı. Ümumiyyətlə, digər kinorejissorlarımızdan fərqli olaraq, Tofiq Tağızadə bir rejissor olaraq yüz ölçüb bir biçərdi. Yəni o, nəinki onlarla, hətta daha çox sayda aktyorları quruluş verdiyi filmin sınaq çəkilişlərinə dəvət edər, onların hər biri ilə ayrı-ayrılıqda yoxlama keçməkdən yorulmazdı. Olduqca həssas, işgüzar olan Tofiq Tağızadənin daxili dünyası onun filmlərində əksini tapır. Hər bir filmində böyük bir insan kimi dəyərləri görünür. Onların sayı o qədər də çox deyil. Cəmi 13 filmdir. 14-cü filmi isə yarımçıq qalmışdı.

Tofiq müəllim Xalq artisti idi. Ömrünün son illərində xüsusi studiya yaratmışdı. İşləmək istəyirdi, lakin amansız ölüm onu aramızdan tez apardı. Bu böyük sənətkarın xatirəsi kinonu sevənlərin qəlbində əbədi yaşayacaqdır.

**II Aparıcı:** Tofiq Tağızadə çəkdiyi bütün filmlərdə özünü professional rejissor kimi təsdiq edib. Sənətkarın rəngarəng mövzulu silsilə ekran əsərləri, o cümlədən "Uzaq sahillərdə", "Arşın mal alan", (1965), "Yeddi oğul istərəm", "Dədə Qorqud" kimi filmləri Azərbaycan kinosunun qızıl fonduna daxil olmuş parlaq sənət nümunələridir.

Tofiq Tağızadə kinorejissor olmaqla yanaşı, bir çox filmlərdə rol alıb, həmçinin uzun illər respublikamızda kino işinin təşkilində və milli kadrların hazırlanmasında da əvəzsiz xidmət göstərib.

Azərbaycan kino sənətinin görkəmli nümayəndəsi Tofiq Tağızadə ömrünün son illərində xüsusi studiya da yaradıb. Lakin amansız əcəl onun işlərini yarımçıq qoydu. Tofiq Tağızadə 1998-ci il avqustun 27-də dünyasını dəyişdi.

Hal-hazırda böyük sənətkarın qızı Xalq artisti İranə Tağızadə onun yolunu davam etdirir.

Sənətkarın yubileyi ilə bağlı anım günündə C. Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının direktoru Müşfiq Hətəmov tədbirlərin birində qeyd edib ki, Tofiq Tağızadə dünya kinematoqrafiyasının mütərəqqi təcrübəsindən yaradıcı şəkildə bəhrələnərək özünəməxsus dəst-xətti ilə Azərbaycan kino sənətinə mühüm yeniliklər gətirib. Onun filmlərinin hər birinin öz maraqlı sujeti var, rejissorun mövzulara özünəməxsus yanaşma tərzi isə milli kinoya yeni üslub və nəfəs gətirib.

Müşfiq Hətəmov onu da bildirib ki, kinostudiyada çalışmış görkəmli sənətkarların yaradıcılıq otaqlarının açılması istiqamətində iş aparılır. "Vaxtilə çalışdıqları otaqlara onların adı veriləcək, orada onlara məxsus əşyalar qoyulacaq. Ötən il

Rasim Ocaqovun adına belə bir otaq yaradılmışdır. Yaxın vaxtlarda Tofiq Tağızadənin də yaradıcılıq otağı açılacaq".

Bəli, bu da sənətkara qoyulan yüksək qiymətin bariz nümunəsi. Əziz oxucular! Bu gün biz sizinlə Azərbaycan kinosunun korifeylərindən biri, istedadlı, qabiliyyətli, milli mənəvi dəyərlərimizi öz çəkdiyi kinolarda tətbiq edən, yaradıcılığı dillərdə dastan olan Tofiq Tağızadə haqqında danışdıq. Ümid edirik ki, Tofiq Tağızadənin kino tarixinə yazmış olduğu şanlı səhifələr heç zaman öz aktuallığını itirməyəcək, heç zaman yaddan çıxmayacaq.

Tədbir rejissorun çəkdiyi "Dədə Qorqud", və "Arşın mal alan" filmlərinin nümayışi ilə başa çatır. Həmçinin sonda "Arşın mal Alan" filmindən Gülçöhrə və Əsgərin dueti səsləndirilir.

**S O N**

**Ədəbiyyat siyahısı**

Kazımzadə A. Tofiq Tağızadə // Azərbaycan kinematorafçıları. – Bakı : Mütərcim, 2002. – S.77-91

“Ölülər” və “O dünyada salam”. Səhnədən ekrana : Heydər Əliyevin film haqqında dedikləri // Kazımzadə A. Heydər Əliyev və kinematoqraf. – Bakı : Apostrof, 2011. – S,76079.

Qaraqızı U. Azərbaycan filmlərinin yaranma tarixindən. – Bakı : E.L. Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2006. - Kitab 1.

# Kinomuzun şərəfli səhifəsi

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 11
Çapa imzalanmışdır: 15.02.2019
Tirajı:100
Pulsuz